**«Dövlət və Din»**.-2010.-№2(16).S.128-132.

# QURANİ-KƏRİM KAİNATI, TƏBİƏTİ VƏ CƏMİYYƏTİ NECƏ ŞƏRH EDİR*

***SABİR HƏSƏNZADƏ**, fəlsəfə elmləri namizədi*

İndi isə «ən-Nəcm» surəsinin 39, 40 və 41-ci ayələrinə nəzər salaq. Ayələrdə deyilir: ***«İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar! Şübhəsiz ki, (qiyamət günü) onun zəhməti (səyi, əməli) görünəcəkdir! Sonra da ona (zəhmətinin, əməlinin) tam əvəzi veriləcəkdir!».***

Həyatda insanı halal zəhmət, halal əmək qədər ucaldan ikinci bir qüvvə ola bilməz. Bu qüvvə elmlə, ədəblə, qeyrətlə və Yaradana qovuşmaqla yerinə yetirilərsə, daha qiymətli, daha gözəl olar. Bu barədə çox söz demək, çox yazmaq mümkündür. Dahilərin dediklərinə müraciət edək. Nizami Gəncəvi yazır:

*Tərlantək halal ye, halal ov ara,*
*Bənzəmə leş üstə qonan quşlara.*

Burada şair tərlanın zəhmətlə, əməklə əldə etdiyi halal ova işarə edir və leş üstə qonan quşların əməksiz, zəhmətsiz əldə etdiklərini, haram yediklərini yada salır.

Bununla yanaşı şair öz alın təriylə torpağı əkib-becərən, halal zəhmətilə yaşayan insanları belə tərənnüm edir:

*Torpağa mərhəmət, xeyirdir insan,*
*Lütf etsən gül verər, zülm etsən tikan.*

Məhəmməd Füzuli də həmin məsələyə özünəməxsus yanaşır və öz halal əməyi, zəhməti ilə yaşayaraq, kimsəni incitməyən saf, pak insanı daha yüksək tutur. O, yazır:

*Fəqr imiş, fəqri Füzuli şərəfi əhli vücud,*
*Özünə eyləmə həmdəm, füqəradan qeyri.*

Burada şair belə insanların daha etibarlı, daha sədaqətli, dostluğa daha möhkəm olduqlarına inamı ifadə edir.

Hindistanın dahi filosof şairi Rabindranat Taqor da özünəməxsus gözəl fikirlər söyləmişdir:

«Göz qapaqları gözə məxsus olduğu kimi, istirahət də əməyə məxsusdur», «Böyük torpaq adicə otun köməyi sayəsində qonaqpərvər olur», «Adamlar amansızdır, lakin insan mərhəmətlidir». Bəli, Taqor da pak, saf insanı yüksək qiymətləndirir. Məhz buna görə də belə insanlar maddi cəhətdən yoxsul olsalar da, mənəvi cəhətdən varlı olmaları onları əbədiyyətə qovuşdurur. Həzrət Əlinin (ə) dili ilə desək, «belələri öləndən sonra ikinci dəfə ölmürlər».

Günlərin birində səhabələrdən on nəfər sözləşir ki, növbə ilə gedib Həzrət Əlidən (ə) elmin maldan üstünlüyünün səbəbi barədə soruşsun. Hər biri ayrı-ayrı Həzrətin hüzuruna gəlib soruşurlar: «Ya Əmirəl-möminin, elmin maldan nə üçün üstün olduğunu bizə izah edə bilərsinizmi?» O, birinciyə «Elm peyğəmbərlərdən, mal isə Qarun və fironlardan qalmışdır», ikinciyə «Elm sahibini, malı isə sahibi qoruyur», üçüncüyə «Elm sahibinin dostu, mal sahibinin isə düşməni çox olar», dördüncüyə «Xərcləndikcə elm artar, mal isə əksilər», beşinciyə «Elm sahibi şərəfli insan, mal sahibi isə simic və xəsis kimi ad qazanar», altıncıya «Elmin oğrudan qorunmasına lüzum yoxdur, malın isə qorunması vacibdir», yeddinciyə «Zaman keçdikcə elm cilalanır, mal isə çürüyüb tələf olur», səkkizinciyə «Elm qəlbi qüvvətləndirir, mal isə əksinə, zəiflədir», doqquzuncuya «Elm təvazökarlıq, mal isə lovğalıq yaradır!», onuncuya «Elm insanda mərhəmət, mal isə xəbislik doğurur» cavablarını verir.

Bir gün başqa səhabələr isə Həzrət Əlidən (ə) soruşurlar: «Göydən daha ağır, yerdən daha geniş, dənizdən daha zəngin, daşdan daha sərt, atəşdən daha isti, buzdan daha soyuq, zəhərdən daha acı nədir?» O, cavabında deyir: «Təmiz və namuslu adama böhtan atmaq göydən daha ağırdır. Haqq yerdən daha genişdir. Qənaətkar adamın qəlbi dənizdən daha zəngindir. Yalançının ürəyi daşdan daha sərtdir. Zalım və ədalətsiz hökmdar atəşdən daha çox yandırıb-yaxır. Səbr buzdan daha soyuqdur. İkiüzlülük zəhərdən də acıdır».

Həzrət Əlinin (ə) digər qiymətli kəlamlarını da nəzərinizə çatdırmaq istərdim. O, demişdir: «Nəfsindən qaç, bu aslan hücumundan qaçmağından daha faydalıdır», «Simic dövlətli, səxavətli dilənçidən də yoxsuldur», «Mal sərxoşluğu içki sərxoşluğundan daha pisdir», «Yetim atası olmayan deyil, elmi və ağlı olmayandır», «Elmli gənc, nadan ağsaqqaldan yaxşıdır», «Ağıl kimi dövlət, gözəl xasiyyət kimi dost, ədəb kimi miras, əxlaq kimi rəhbər, elm kimi şərəf yoxdur».

«Əl-İnfitar» surəsinin 18-ci ayəsində oxuyuruq: ***«Bəli, sən nə bilirsən ki, haqq-hesab günü nədir?! (Qiyamət gününün dəhşətini təsəvvür etmək insanın imkanı xaricindədir. Cəhənnəm əzabının şiddəti hər bir təsəvvürün***

---

* Əvvəli toplunun 68-ci, 10-cu və 12-ci saylarında.

***fövqündədir. Ondan xilas olmaq üçün yalnız bir yol vardır - Allaha səmimi qəlbdən ibadət və itaət!)».*** Bütün alimlər, yazıçılar, görkəmli pedaqoqlar çalışırlar ki, insanı pis işlərdən çəkindirsinlər və onu kamilləşdirərək xoşbəxt həyata çatdırsınlar. Nə qədər tədbir görülsə də, yenə də xoşa gəlməyən, insana əzab verən hadisələr baş verdiyinin şahidi oluruq. Hətta ağır cinayətlərə də. Ayəyə dərindən nəzər salanda məlum olur ki, Qurani-Kərimin göstərdiyi yol ən düzgün yoldur.

«Əl-Mutəffifin» surəsinin 15-ci ayəsinə nəzər yetirək. ***«Xeyr, o gün onlar Rəbbinin mərhəmətindən məhrum olacaqlar!».*** Bu ayənin mənasından aydın olur ki, qiyamət günündə insanlar dirildilərkən Yaradanın mərhəməti heç də hamıya şamil edilməyəcək.

«Əl-Buruc» surəsinin 13-cü ayəsində deyilir: ***«Həqiqətən (insanı) yoxdan var edən və (öldükdən sonra) təkrar dirildən Odur!».*** Düşünəndə ki, yoxdan Aləm yaratmaq, insanı yenidən diriltmək, əbədi həyata qaytarmaq dəfələrlə ondan asandır, burada bir mənanı izah etmək lazım gəlir. Elə məhz bu səbəbdən də Nizami Gəncəvi demişdir ki, ölməsən ölümün səbəbini bilə bilməzsən. Məlumdur ki, Allah insanda təcəllə tapır, ancaq insan Allahda təcəllə tapa bilməz, çünki Allah yaradandı, insan yaradılan. İnsan həm maddi və həm də mənəvi varlıqdır. Allah isə yalnız mənəvi varlıqdır və həm də görünməzdir.

Eyni zamanda «ət-Tariq» surəsinin 4, 5, 6 və 7-ci ayələrində deyilir: ***«Elə bir kimsə yoxdur ki, onun üstündə bir gözətçi (mələk) olmasın! Elə isə insan nədən yaradıldığına (bəsirət gözü ilə) bir baxsın! O, axıb tökülən bir sudan (nütfədən) yaradılmışdır. (O su kişilərin) bel sümüyündən, qadınların isə köks sümüyündən çıxar!».***

Məlumdur ki, kamil insan kamil insanı tez başa düşür, anlayır və ona olan hörməti artır. Hətta onlar arasında böyük ünsiyyət yaranır, nəhayət bu qarşılıqlı anlaşmanın nəticəsində dostluq yaranır. Mən deyərdim, dostluğun əsası bir-birini dərindən dərk etməklə, uyğun xarakterə malik olmaqla həyat və cəmiyyət hadisələrinə eyni yanaşmaqla bağlıdır. Belə dostluq uzun olur, yəni ömürlə bağlı olur. Burada xalqının milli və qeyrətli oğlu Şıxəli Qurbanovun dostluğa dair bir beyti yada düşür. O, yazır:

*Dostluq nemətidir qoca dünyanın,*
*Olsa dərin olsun, üzdən olmasın.*

Odur ki, elmli, savadlı kamil insanlar bir-birini ona görə tez dərk edirlər ki, ilk növbədə onlar özlərini dərk edirlər. Məhəmməd peyğəmbər (s) demişdir: «Özünü dərk etməyən Allahını dərk edə bilməz», Allahı dərk etmənin yolunu isə Həzrət Əli (ə) bəsirət gözündə və bir də imanda görür.

Özünü dərk edən insan Yaradanı dərk edərək düşünməlidir ki, özü kimi bir ecazkar varlığı kim yaradıb, buna qadir olan kimdir. İstər insanın xarici görünüşünü, istərsə də daxili quruluşunu, orqanların qanunauyğun düzülüşünü və üzərlərinə düşən vəzifələri düzgün yerinə yetirmələrini, bir-biriləri ilə bağlılıqlarını, orqanın birinin zədələnməsinin digərinə təsirini və onların ahəngdar işləməsini düşündükdə yalnız heyrətdə qalırsan.

Bir məclisdə olarkən Azərbaycanda elminə, helminə və imanına qibtə etdiyim Şeyx Məhəmməd ağaya sual verdim ki, Yaradan haqqında fikrini bilmək istərdim. Oturduğumuz süfrədən bir qaşıq götürərək dedi ki, inanırsan bu qaşığı bir usta düzəldib? Dedim bəli, inanıram. O isə dedi ki, qaşıqdan soruş görək onu kim düzəldib. Mən gülümsədim. Dedi, niyə gülümsəyirsən, soruş görək də onu kim düzəldib? Özü də ciddi görkəm alaraq fikrini təkid etdi. Mən susmalı oldum. O dedi: «Bu qaşıq nitqdə, dərk etməkdə, düşünməkdə, qavramaqda və s. onu düzəldən ustanın qarşısında hansı vəziyyətdədirsə, biz də bizi yaradanın qarşısında həmin lal qaşıq vəziyyətindəyik». Kişi sözünü davam etdirdi: «Bir gölün qabağını açsalar, onun suyu tamamilə çəkiləndən sonra narın lil qalırmı?» Mən dedim: - «Bəli!» O söylədi ki, «həmin lilin üstü ilə bir həşərat və ya bir quş getsə onun izi qalarmı?» Mən yenə dedim: - «Bəli, qalar!» O isə böyük həyəcan və maraqla soruşdu: «Bəs bu qədər Günəş, Ay, Yer, ulduzlar, planetlər, bir sözlə, yerdə yaratdığı 18 min aləm (6 min nəbatat, 6 min cavadat, 6 min heyvanat) Yaradanın varlığına sübut deyilmi?!» Odur ki, gərək insan birinci olaraq özünü dərk etsin, dünyaya nə üçün gəldiyini başa düşsün, sonra öz qiymətini qazanmaqla cəmiyyət içində şəxsiyyət kimi tanınmağa çalışsın. Bu dünyanın sərvətinə uymasın. Yeganə yolu düzgün yol, yəni siratəl-müstəqim olsun.

## ƏDƏBİYYAT

*1. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z.M. Bünyadov, V.M. Məmmədəliyev). Bakı, «Qismət», 2008.*

*2. Nəhcul-bəlağə. Bakı, «Nurlar», 2009.*

***РЕЗЮМЕ***

***Как комментирует Священный Коран вселенную, природу и общество?***

*В статье рассматриваются стихи Корана, повествующие о вселенной, природе и обществе. Также, приводятся цитаты великого азербайджанского поэта Низами Гянджеви о честном труде, затрагивается тема знания и усердия, которые возвеличивают человека, разъясняются отрицательные последствия лжи, несправедливости, жадности, невежества и сладострастия. В статье говорится, что*

*тот, кто познал Создателя, познал и себя. В данном труде приводятся мудрые изречения Хазрети Али, отмечается, что знающие и грамотные люди быстро понимают друг друга. Кроме того, здесь даны советы людям.*

**SUMMARY**

**How does Holy Koran explain the universe, nature and society?**

*The verses of Koran about the universe, nature and society are explained in the article. The great poets of Azerbaijan, Nizami Genjevi's poems about honest labour are cited. Honest labour, science, perfection endow man with prestige. The results of falsity, injustice, predilection for passion, stinginess and ignorance are explained. If men perceive him, he perceives The Creator - Allah. Imam Ali's sayings also are cited in the article. It is noted that, educated men come to an agreement more quickly. The article also embraces some recommendations.*